**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Elmi şurasının 8 dekabr 2023-cü il tarixli iclasının (protokol №3) qərarı ilə təsdiq edilmişdir.**

**2023/2024-cü tədris ilində ADPU-da pedaqoji internaturanın təşkili üzrə müvəqqəti QAYDALAR**

1. Elm və Təhsil Nazirnin müavini F.Qurbanovun 11.09.2023-cü il tarixli məktubu rəhbərlik və icra üçün qəbul edilsin;
2. Pedaqoji internaturanın Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 19 sentyabr tarixli 221 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali (orta ixtisas) təhsil müəssisələri tələbələrinin ixtisas üzrə təcrübəsinin keçirilməsi haqqında əsasnamə"sinin tələblərinə uyğun təşkil edilsin;
3. Pedaqoji internatura üçün nəzərdə tutulmuş 30 kreditin 21-nin ümumi orta məktəbdə təcrübənin keçirilməsinə, 9-nun isə hesabatın hazırlanması, təqdim olunması və ali təhsil müəssisəsinin təşkil etdiyi ixtisas üzrə təcrübə komissiyasında hesabatın müdafiəsinə verilməsi müəyyən edilsin;
4. Tələbələrin pedaqoji internaturaya gedəcəkləri ümumi orta məktəblərin siyahısı internaturanın başlanmasına 4 ay qalmış, ümumi orta məktəblərin tabeçilik prinsipi gözlənilməklə razılaşdırılsın;
5. Pedaqoji internaturanın 2024-cü ilin 16 fevral – 25 may tarixləri arasında təşkil olunması və 25 may – 14 iyun tarixlərdə hesabatların hazırlanıb müdafiəyə təqdim olunması müəyyən edilsin;
6. İnternatura hesabatının müdafiəsi üçün Təcrübə Komissiyası ixtisaslar üzrə fakültə dekanın (SABAH qruplarında SABAH Mərkəzinin) təqdimatı ilə fakültənin ixtisas üzrə professor-müəllim heyətindən və ixtisas üzrə təcrübə yerlərinin nümayəndələrindən ibarət olmaqla rektorun əmri ilə yaradılsın;
7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın 3.2.23. bəndinə uyğun olaraq pedaqoji internatura üzrə ayrılmış təcrübə saatlarının 25 faizindən çoxunda iştirak etməyən tələbə (Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin Kollegiyası tərəfindən idman növləri üzrə təsdiq edilmiş milli yığma komandaların üzvləri olan idmançı-tələbələr istisna olmaqla) pedaqoji internaturanı keçməmiş hesab olunsun. Bu halda tələbə qaydalara uyğun olaraq növbəti semestrlərdə, ödənişli əsaslarla pedaqoji internaturada iştirak edə bilməsi nəzərə alınsın;
8. Təcrübə hesabat Komissiyaları fakültələrin təklif etdiyi və Tədris departamentinin təsdiq etdiyi cədvələ əsasən 2024-cü ilin 15 iyun-25 iyun tarixində bütün tələbələrin təqdimatlarını dinləyərək kollegial yekun qərar versin;
9. ADPU-nun Təcrübə komissiyasının 2019-cu il 14 fevral tarixli iclasının qərarı ilə bəyənilmiş və ADPU Elmi Şurasının 30 yanvar 2019-cu il tarixli qərarı ilə (5 nömrəli protokol) əsasən təsdiq edilmiş "Tələbələrin pedaqoji təcrübəsinə dair yaddaş kitabçası"na əsasən həyata keçirilsin;

10. 2023/2024-cü il tədris ilinin pedaqoji internaturasının qiymətləndirilməsi, yeni qaydalar təsdiq olunadək aşağıdakı kimi həyata keçirilsin:

**<u>Məktəb qiymətləndirməsi</u>: 0-100 baldır.**
**Təcrübənin baza (məktəb) müddəti – 14 həftə, kredit – 21.**

| № | Qiymətləndirmə istiqaməti | Bal |
|---|---|---|
| 1. | Pedaqoji internaturaya davamiyyətə görə | 0-10 |
| 2. | Sınaq dərslərinə (məşğələlərinə) görə | 0-50 |
| 3. | Pedaqoji işlər üçün | 0-15 |
| 4. | Psixoloji işlər üçün | 0-15 |
| 5. | Sinifdə aparılmış işlər üçün (Sinif rəhbəri) | 0-10 |
| | **Cəmi** | **100** |

**<u>Universitetdə ixtisas üzrə Təcrübə komissiyasının qiymətləndirməsi</u>: 0-100 baldır. Müddət – 4 həftə və kredit – 9.**

| № | Qiymətləndirmə istiqaməti | Bal |
|---|---|---|
| 1. | Təcrübə hesabatının tərtibatına görə | 0-15 |
| 2. | Təcrübə hesabatının məzmununun uyğunluğuna, qrammatik və stilistik səhvlərə yol vermədiyinə görə | 0-15 |
| 3. | Təcrübə hesabatının müdafiəsi səviyyəsinə (məruzə, təqdimat və s.) görə | 0-50 |
| 4. | Tələbənin təcrübə hesabatı ilə bağlı verilən suallara cavabına görə | 0-20 |
| | **Cəmi** | **100** |

11. Təcrübəçi tələbə hər iki qiymətləndirmə mərhələsindən (sınaq dərslərinin qiymətləndirilməsinə və təcrübə hesabatının müdafiəsi səviyyəsinə görə) verilən 50 balın ən azı 50 faizindən (25 bal) qiymət almış olması əsas götürülsün; Qoşa ixtisaslarda sinaq dərslərinin qiymətləndirilməsində hər iki fənn üzrə bərabər sayda sınaq dərsi keçirildiyi üçün tələb olunan maksimal 50 balın, toplanması tələb olunan minimal 50 faizininin fənlər arasında bərabər (25 % + 25%) bölünməsi təmin edilsin.
12. Təcrübə Komissiyasının hər bir üzvü, təcrübəçini yuxarıdakı meyarlara görə müstəqil qiymətləndirir. Komissiya sədri hər bir təcrübəçi haqqında komissiya üzvlərinin qiymətləndirməsini toplayıb, qiymətləndirmədə iştirak etmiş komissiya üzvlərinin sayına bölərək, təcrübəçinin yekun qiymətini müəyyən və elan edir;
13. Hər bir tələbənin sınaq dərslərindən ən azı birində metodist müəllimlərlə bərabər pedaqogika və psixologiya müəllimlərinin iştirakları təmin edilsin;
14. Tələbə Təcrübə Komissiyasında lazım olan minimum 51 balı toplamadıqda ona növbəti dövrdə (tədris ilinin oktyabr və dekabr aylarında) təkrar pedaqoji internatura hesabatını təqdim etmə hüququ saxlanılsın;
15. Qiymətləndirmənin hər iki mərhələsindən ayrı-ayrılıqda 51 bal və üstü nəticə toplayan şəxslər pedaqoji internaturanı uğurla tamamlamış hesab olunsun;
16. İki qiymətləndirmənin cəminin 2-yə bölünməsi nəticəsində çıxan yekun bal məzun olan şəxsin aldığı diploma əlavədə (Pedaqoji internatura – 30 kredit; 000 yekun bal**)** də qeyd olunsun;
17. Təcrübə Komissiyası qarşısında təqdim ediləcək pedaqoji internatura hesabatının (təqdimatının) hazırlanması Qaydası təsdiq olsun (Əlavə 1);
18. Məktəb qiymətləndirmə vərəqi (Əlavə 2) təsdiq edilsin;

19. Təcrübə Komissiyasının yekun qiymətləndirmə vərəqi (Əlavə 3) təsdiq edilsin;
20. Təcrübə Komissiyası üzvünün qiymətləndirmə cədvəli  (Əlavə 4) təsdiq edilsin.

*Əlavə 1*

**Azərbaycan Dövlət Pedaqoji Universiteti**

**Təcrübə Komissiyası qarşısında**
**təqdim ediləcək pedaqoji internatura hesabatının**
**(təqdimatının) hazırlanması**
**QAYDASI**

**Bakı-2024**

**Təcrübə Komissiyası qarşısında təqdim ediləcək pedaqoji internatura hesabatının (təqdimatının) hazırlanmasına qoyulan tələblər**

1. Pedaqoji internaturanın hesabatı vörd (word) formatında təqdim edilir;
2. Pedaqoji internaturanın hesabatının komissiya qarşısında təqdimatı “powerpoint” proqramında, tələbənin təhsil aldığı dildə təqdim edilir;
3. Hesabat təcrübəçi, təcrübə bazası, təcrübənin gedişi, məzmunu və nəticəsi haqqında aşağıdakı müfəssəl məlumatları özündə əks etdirir:
   - 3.1. Təcrübəçinin özü haqqında məlumat;
   - 3.2. Təcrübə bazası (fotosu, qısa tarixçəsi, məşhur məzunları, təhsilalanların sayı, müəllim sayı, struktur sxemi, fənn üzrə (təcrübəçinin) siniflərin (kabinetlərin) fotosu, valideynlərlə işi və s.,) haqqında məlumatlar;
   - 3.3. Təcrübə keçdiyin sinif üzrə təhsilalan sayı və şəkilləri;
   - 3.4. Təcrübə dövründə təhkim olunan ixtisas metodisti, pedaqoq, psixoloq, fakültə və ya kafedra üzrə pedaqoji təcrübə rəhbəri, məktəb direktoru, direktor müavini, fənn müəllimi və sinif rəhbəri haqqında qısa məlumat;
   - 3.5. Sınaq dərslərinin cədvəli, işçi proqramı, mövzuları, qeydləri, şəkilləri (Çöl təcrübəsinə gedənlərin çöl təcrübə qeydləri və şəkilləri);
   - 3.6. Sınaq dərslərinin keçirilməsi üçün tələbənin təhkim olunduğu sinif, təhsilalanlar, sinif (qrup)-dərs şəraiti haqqında məlumat;
   - 3.7. Tələbənin öyrəndiyi məsələlər – bilik, bacarıq, vərdiş, dəyər, keyfiyyətlər və səriştələr;
   - 3.8. Məzmun haqqında təcrübəçinin elmi, metodiki, pedaqoji və psixoloji baxımdan dəyərləndirmələri.
   - 3.9. Təcrübəçi tələbənin tərtib etdiyi gündəlik haqqında məlumat (gündəlik təqdim edilməklə);
   - 3.10. İxtisas fənni üzrə demiş olduğu dərslərin icmalları və planları haqqında məlumat;
   - 3.11. İcmal dərslərin müzakirəsinin mühüm qeydləri;
   - 3.12. Təcrübə bazasında təcrübəçi tələbənin iştirakı ilə keçirilmiş tədbir(lər) və onlardan fotolar;
   - 3.13. Təcrübəçi tələbənin təhsilalanlarla apardığı tərbiyəvi, əxlaqi söhbətin mətni;
   - 3.14. Bir təhsilalanın psixoloji xasiyyətnaməsi;
   - 3.15. İki təhsilalanın (əla və zəif) müqayisəli psixoloji xasiyyətnaməsi;
   - 3.16. Təcrübəçi tələbənin təcrübə keçdiyi sinif (qrup) üçün pedaqoji xarakteristikası;
   - 3.17. Təcrübəçi tələbənin təcrübə müddətində hazırladığı tədris resursları (və ya onların fotoşəkilləri);
   - 3.18. Təcrübəçi tələbənin təcrübənin gedişi və onun təkmilləşdirilməsi haqqında təklifləri;
   - 3.19. Təcrübəçi tələbənin təcrübənin yekununda gəldiyi nəticələr.

*Əlavə 2*

**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**Pedaqoji internatura**

| | | | |
|---|---|---|---|
| **Fakültə:** | | **İxtisas:** | |
| **Qrup:** | | **Şöbə:** | Əyani |
| **Tədris ili:** | 2023/2024 | **Semestr:** | |
| **Pedaqoji internatura müddəti:** | 14 həftə | **Kredit** | 21 |
| **Təcrübə yeri:** | | **Tarix:** | |

## Məktəb qiymətləndirmə vərəqi

| № | Tələbənin S.A.A. | Davamiyyət balı (0-10) | Məktəb qiymətləndirmə balı | | | | Ümumi bal | | Qeyd |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Sınaq dərsləri (0-50) | Pedaqoji işlər (0-15) | Psixoloji işlər (0-15) | Sinifdə aparılmış işlər üçün (0-10) | Rəqəmlə | Hərflə | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |

## YEKUN NƏTİCƏ

| | | | |
|---|---|---|---|
| Müvəffəq qiymət alanların sayı: | | Qeyri-müvəffəq qiymət alanların sayı: | |
| Ballarla qiymətləndirmə | | Buraxılmır | |
| A = 91 - 100 | | | |
| B = 81 - 90 | | Gəlmədi | |
| C = 71 - 80 | | | |
| D = 61 - 70 | | Limit | |
| E = 51 - 60 | | | |
| F = 0 - 50 | | | |

## İmzalar

| **№** | **Qiymətləndirənin S.A.A., elmi adı, dərəcəsi** | **Vəzifəsi** | **İmza** |
|---|---|---|---|
| | | Pedaqoji təcrübə rəhbəri | |
| | | Metodist | |
| | | Pedaqoq | |
| | | Psixoloq | |
| | | Məktəbdən fənn müəllimi | |
| | | Sinif rəhbəri | |
| | | Direktor müavini | |
| | | Direktor | |

*Əlavə 3*

**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**Pedaqoji internatura**

| | | | |
|---|---|---|---|
| **Fakültə:** | | **İxtisas:** | |
| **Qrup:** | | **Şöbə:** | Əyani |
| **Tədris ili:** | 2023/2024 | **Semestr:** | |
| **Pedaqoji internatura müddəti:** | 4 həftə | **Kredit** | 9 |
| **Təcrübə yeri:** | | **Tarix:** | |

## Təcrübə Komissiyasının yekun qiymətləndirmə vərəqi

| **№** | **Tələbənin S.A.A.** | **Təcrübə hesabatının qiymətləndirməsi balı** | | | | **Ümumi bal** | | **Qeyd** |
|---|---|---|---|---|---|---|---|---|
| | | **Təcrübə hesabatının tərtibatı (0-15)** | **Təcrübə hesabatının məzmununun uyğunluğuna, qrammatik və stilistik səhvlərə yol vermədiyinə görə (0-15)** | **Təcrübə hesabatının müdafiəsi səviyyəsinə (məruzə, təqdimat və s.) görə (0-50)** | **Tələbənin təcrübə hesabatı ilə bağlı verilən suallara cavabına görə (0-20)** | **Rəqəmlə** | **Hərflə** | |
| | | | | | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |

## YEKUN NƏTİCƏ

| Müvəffəq qiymət alanların sayı: | | Qeyri-müvəffəq qiymət alanların sayı: | |
|---|---|---|---|
| Ballarla qiymətləndirmə | | Buraxılmır | |
| A = 91 - 100 | | | |
| B = 81 - 90 | | Gəlmədi | |
| C = 71 - 80 | | | |
| D = 61 - 70 | | | |
| E = 51 - 60 | | | |
| F = 0 - 50 | | | |

## Təcrübə Komissiyası üzvlərinin imzası

| № | Təcrübə Komissiyası üzvlərinin S.A.A., elmi adı, dərəcəsi | Vəzifəsi | İmza |
|---|---|---|---|
| | | Sədr | |
| | | Üzv | |
| | | Üzv | |
| | | Üzv | |
| | | Katib | |

*Əlavə 4*

**Azərbaycan Dövlət Pedaqoji Universiteti**

**Təcrübə Komissiyası üzvünün qiymətləndirmə cədvəli**

**Təcrübə komissiyasının üzvü_____________________________________________________**

| № | Tələbənin soyadı, adı, atasının adı | Təcrübə hesabatının qiymətləndirməsi balı (0-100 bal) | | | | Yekun orta qiymət |
|---|---|---|---|---|---|---|
| | | Təcrübə hesabatının tərtibatı (0-15) | Təcrübə hesabatının məzmununun uyğunluğuna, qrammatik və stilistik səhvlərə yol verilmədiyinə görə (0-15) | Təcrübə hesabatının müdafiəsi səviyyəsinə (məruzə, təqdimat və s.) görə (0-50) | Tələbənin təcrübə hesabatı ilə bağlı verilən suallara cavabına görə (0-20) | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |

**Komissiya üzvünün imzası:**

**Tarix:**